Məktəbli ensiklopediyası

# Səyahət



Kitab Qanun Nəşriyyatı redaksiya
heyəti tərəfindən çapa hazırlanıb.

**SƏYAHƏT**
Bakı, Qanun Nəşriyyatı, 2024, 32 səh.

Yaş qrupu: 8-12
Ölçü: 165x235 mm
Cild: qalın
Çapa imzalandı: 07.05.2024

| | |
|---|---|
| Korrektor: | Elsevər Muradov |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-944-9

© Qanun Nəşriyyatı, 2024

# Mündəricat


4 Afrika qitəsinin sahillərini hansı dənizlər yuyur?

4 Dünyada ən böyük səhra hansıdır?

5 Afrikada ən hündür dağlar hansılardır?

5 Böyük Afrika çayları hara axır?

6 Afrikada hansı dillərdə danışırlar?

6 Afrikada hansı dinlər var?

7 Afrika incəsənəti nədir?

8 Quldarlıq Afrika əhalisinə necə təsir göstərib?

9 Amerika qitəsinin ölçüləri necədir?

9 Mərkəzi Amerika adalığı nə deməkdir?

10 Panama boynu niyə bu qədər vacibdir?

11 Koloradonun Böyük kanyonu nədir?

12 Ən uzun gəmiçilik yolu hansıdır?

13 Eskimoslar harada yaşayırlar?

14 "Silikon vadisi" nə deməkdir?

14 İndi ABŞ-ın hansı bölgəsində ən böyük şəhər arazisi yerləşir?

15 Avropa müstəmləkəçiliyi Şimali Amerikanın hindu əhalisinə necə təsir göstərdi?

16 And dağları silsiləsinin Cənubi Amerika üçün hansı əhəmiyyəti var?

17 Amazoniyanın sahəsi nə qədərdir?

17 Müasir Latın Amerikası cəmiyyəti necədir?

18 Niyə Amerika turistlər üçün cənnət sayılır?

19 Antarktika qitəsi harada yerləşir?

19 Doğrudanmı, cənub qütbündə heç kəs yaşamır?

20 Antarktida qitəsi nə vaxtdan təbii qoruq sayılır?

20 Antarktida qitəsində heyvanlar və bitkilər varmı?

21 Asiyanın əsas çayları necə adlanır?

22 Mussonlar nədir?

22 Dünyada ən uca dağ silsiləsi hansıdır?

23 Dünyada ən çox əhalisi olan dövlət hansıdır?

24 Dünyada ən gözəl mavzoley haradadır?

25 Asiyada hansı kənd təsərrüfatı bitkiləri daha geniş yayılıb?

26 Hansı dağ silsiləsi Qərbi Avropada daha vacibdir?

27 Fiord nədir?

28 Hansı dağlar Avropanı Asiyadan ayırır?

29 Avropa qəsrləri nə vaxt tikilib?

30 Dünyada ən kiçik dövlət hansıdır?

31 Okeaniya adalar qitəsidirmi?

32 Daş bütlər nədir?

32 İlk Avstraliya sakinləri kimlər olub?




## *Afrika qitəsinin sahillərini hansı dənizlər yuyur?*

Özünün 32 milyon kvadrat kilometrlik sahəsi ilə böyüklüyünə görə üçüncü olan Afrika qitəsinin sahillərini **Atlantik** okeanının, **Hind** okeanının, onu Asiyadan ayıran **Qırmızı** dənizin və Avropadan ayıran **Aralıq** dənizinin suları yuyur. Bu qitənin 630 milyon əhalisi var.

## *Dünyada ən böyük səhra hansıdır?*

Dünyada ən böyük səhra Liviya səhrasını və Teneri özündə birləşdirən **Böyük Səhradır**. O, 8600000 kvadrat kilometr ərazini əhatə edir və qərbdən-şərqə Atlantik okeanından Qırmızı dənizə qədər uzanır. Afrikanın cənubunda **Kalahari** və **Namibiya** səhraları yerləşir.



**Böyük Səhra (Tunis)**

# *Afrikada ən hündür dağlar hansılardır?*



Əjdaha dağları

Afrika qitəsində çoxlu dağ massivləri var. Şimal-qərbdə – Marokkoda hündür zirvələri dörd min metrə çatan **Atlas dağları** yerləşir. Şərqdə **Efiopiya yaylası**, qitənin mərkəzində Afrikada ən yüksək olan **Kilimancaro** dağı (5895) və **Keniya** dağı (5199) yerləşir. Mərkəzi Afrikada **Ruvenzori** (5109) və **Elqon** dağları seçilir. Cənubda ən hündür zirvəsi 3482 metrə çatan **Əjdaha dağları** yerləşir.

# *Böyük Afrika çayları hara axır?*



Nil çayı

Afrika qitəsinin çayları uzun və çoxsuludur. Aralıq dənizinə tökülən və böyük delta yaradan **Nil** çayı dünyada ən uzun çaydır.

Afrikada başqa böyük çaylar da var: Atlantik okeanına tökülən **Niger**, **Seneqal**, **Konqo** və **Qambiya**, Hind okeanına tökülən **Zambezi** və **Limpopo** çayları. Zambezi çayının suları Zambiyada **Viktoriya şəlaləsini** əmələ gətirir.

## Afrikada hansı dillərdə danışırlar?

Afrikada səkkiz yüzdən artıq dildə danışılır. Bunlardan Keniya, Tanzaniya və Mozambikdə **suaxili**, Mali, Seneqal və Yuxarı Qvineyada **mandinqo,** Afrikanın şimalında isə **ərəb** dillərini göstərmək olar. Onsuz da Afrika dövlətlərində köhnə metropoliya dilləri rəsmi dil kimi qəbul edilir, ona görə də fransız, ingilis və portuqal kimi Avropa dilləri geniş istifadə olunur.

## Afrikada hansı dinlər var?

Ənənəvi dinlər insanlara təbiətlə ünsiyyət qurmağa, öz əcdadlarının inanclarına aid ilahi qüvvə və ya ali tanrıya inamı saxlamağa, çoxsaylı inancların köməyi ilə ali qüvvələrə inanmağa imkan yaradır.

Həmçinin dünyanın iki əsas aparıcı dini – VII əsrdə Afrikada meydana gəlmiş **islam** və XV əsrdə müstəmləkəçilik dövründə yayılmış **xristianlıq** dinləri əsas, vacib rol oynayır.



**Cənnə Böyük məscidi (Mali)**

# *Afrika incəsənəti nədir?*

Misirdə və Sudanda olan piramidalar kimi bəzi Afrika mədəniyyəti nümunələri dünyada yaxşı tanınır, ancaq başqa gözəl sənət əsərləri – məsələn, Zimbabvedə **Mvene Mutaba qalası** (XII əsr), Nigeriyada **İle-İfe mədəniyyətinin** tunc, dəmir heykəlləri (XI–XIII əsrlər) və Əlcəzairdə Tassili N`Aceredə qaya üzərindəki rəsmlər kimi başqa gözəl sənət əsərləri də vardır.

Dünya mədəniyyətinə Afrika musiqisi böyük təsir göstərmişdir. Ənənəvi Afrika musiqi alətlərinə koranı (simli) və Amerika marimbasının sələfi olan balafonu (zərb) nümunə göstərmək olar.



**Bürünc baş İfe (Nigeriya)**

# *Quldarlıq Afrika əhalisinə necə təsir göstərib?*

XVI və XIX əsrlər arasında yetmiş milyon afrikalı Amerika və dünyanın başqa yerlərində qul kimi satılıb. Qul etmək üçün gənc, güclü kişiləri, bir də əmək qabiliyyətli və uşaq doğa biləcək qadınları seçirdilər. XIX əsrdə qul alveri qadağan edildi, ancaq qul alverçiləri bununla bir çox illər məşğul olmaqda davam edirdilər. Hökumət dairələri qul dolu gəmiləri ələ keçirəndə onları azad edərək Afrikaya qaytarırdılar, ancaq çox zaman onları öz doğma yerlərinə qaytarmaq mümkün olmurdu. Fritaun və Librevil kimi müasir şəhərlərin və Liberii kimi dövlət adlarının yaranmasının səbəbi həmin ərazilərdə **azad edilmiş** qulların yerləşdirilməsidir.



**Afrikalı qullar**

# *Amerika qitəsinin ölçüləri necədir?*



Amerika qitəsi Şimal qütbündən Cənub qütbünə qədər olan ərazidə yerləşir. Faktiki olaraq o, iki materikdən ibarətdir: **Şimali Amerika** və **Cənubi Amerika**. Onların arasında Qvatemala və Belizadan Panamaya qədər olan Mərkəzi Amerika yerləşir. Qorn burnunun yerləşdiyi uzaq cənubda adalar qrupu Cənubi Amerikanı Antarktida qitəsi ilə birləşdirir.

# *Mərkəzi Amerika adalığı nə deməkdir?*



**Karib dənizinin sahili**

**Karib dənizində** Böyük Antil adaları və Kiçik Antil adalarına bölünmüş Mərkəzi Amerika adalığı yerləşir.

**Böyük Antil adaları** özündə Kuba, Puerto və iki dövlət – Haiti və Dominikan respublikaları arasında bölünmüş Haitini (keçmiş Espanyola adası) birləşdirir.

**Kiçik Antil adalarına** Küləkdöyən və Külək tutmayan (Müqəddəs Kristofer və Nevis, Antiqua və Barbuda, Domenika, Santa-Lyusiya, Barbados, San-Visente, Qranadinas və b.) adalar aiddir.